

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 47 (23.689)

*11 mart 2021-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Söhbət zamanı bölgədə yaranmış yeni geosiyasi vəziyyət, postmüharibə şəraiti, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa və yenidənqurma işlərinin aparılması, regional nəqliyyat layihələrinin həyata keçirilməsi məsələləri müzakirə olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Macarıstanın Xarici işlər və Ticarət naziri Peter Siyartonu videoformatda qəbul edib.

Macarıstanlı naziri salamlayan Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan və Macarıstan müxtəlif sahələrdə fəal əməkdaşlığı davam etdirməli, iqtisadiyyat və ticarət sahələrində əməkdaşlığı fəallaşdırmalıdır. Kənd təsərrüfatı və texnologiya sahələrində böyük potensial olduğunu diqqətə çatdıran dövlətimizin başçısı azad olunmuş ərazilərdə müasir infrastruktur və şəhərsalma layihələrinin icrasının planlaşdırıldığını vurğulayıb.

Macarıstanın Xarici işlər və Ticarət naziri Peter Siyarto ölkəmizin başçısını əmin edib ki, Macarıstan hər zaman balanslı yanaşma nümayiş etdirəcək, həqiqəti söyləyəcək.



## Muxtar respublikanın enerji təhlükəsizliyi diqqətdə saxlanılır



***Müasir dövrdə dayanıqlı və keyfiyyətli enerji təchizatı hər bir ölkənin davamlı inkişafının təmin edilməsində mühüm rol oynayır. Muxtar respublikada da dövlət siyasətinin əsasını təşkil edən enerji təhlükəsizliyi tədbirləri daim diqqətdə saxlanılmış, yeni güclərin yaradılması və infrastrukturun yenilənməsi istiqamətində mühüm işlər həyata keçirilmişdir.***

Muxtar respublikanın enerji təchizatını yaxşılaşdırmaq məqsədilə 2006-cı ildən ötən dövr ərzində 1 elektrik stansiyası yenidən qurulmuş, 7 elektrik stansiyası tikilmişdir ki, bunun da 4-ü su, 2-si isə Günəş Elektrik Stansiyasıdır. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq müəssisələrin sayı 1-dən 9-a, ümumi güc isə 22 meqavatdan 244,4 meqavata çatdırılmışdır. Ümumi gücün 22 meqavatı Araz Su Elektrik Stansiyasının, 60 meqavatı Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasının, 87 meqavatı Naxçıvan Modul Elektrik Stansiyasının, 4,5 meqavatı Heydər Əliyev Su Anbarı üzərindəki Su Elektrik Stansiyasının, 22 meqavatı Biləv Su Elektrik Stansiyasının, 20,5 meqavatı “Arpaçay-1”, 1,4 meqavatı “Arpaçay-2” Su Elektrik stansiyalarının, 22 meqavatı Babək, 5 meqavatı isə Kəngərli rayonunda yerləşən Günəş Elektrik stansiyalarının payına düşür.

İstehlakçıların elektrik enerjisi ilə təchizatını daha da yaxşılaşdırmaq istiqamətində təkcə 2014-2020-ci illər ərzində muxtar respublikada 452,1 kilometr uzunluğunda yeni elektrik xətləri çəkilmiş, 734,5 kilometr uzunluğunda elektrik xətləri əsaslı təmir olunmuşdur. Bu dövr ərzində 229 yeni transformator quraşdırılmış, 805 transformator isə əsaslı təmir olunmuşdur. Bundan əlavə, təkcə 2020-ci ildə bu sahədə maddi-texniki bazanın gücləndirilməsi istiqamətində muxtar respublikaya 4 adda 828 dəstdən ibarət yeni texnika və avadanlıqlar gətirilmiş, Dövlət Energetika Xidmətinə 1 “Hyundai İoniq” markalı elektriklə işləyən avtomobil, 4 “Qazel” markalı avtomobil, 1 “BKM-317A” markalı yerqazan qurğu və 2 ədəd xüsusi təyinatlı “Ford” markalı avtomobil verilmişdir.

2020-ci ildə muxtar respublikada 424 milyon 414 min 532 kilovat-saat elektrik enerjisi istehsal olunmuşdur ki, bunun da 226 milyon 399 min 632 kilovat-saatı və ya 53,3 faizi istilik elektrik stansiyalarında, 157 milyon 70 min 924 kilovat-saatı və ya 37 faizi su elektrik stansiyalarında, 40 milyon 943 min 976 kilovat-saatı və ya 9,7 faizi isə günəş elektrik stansiyalarında istehsal edilmişdir. Alternativ və bərpa olunan elektrik stansiyalarında elektrik enerjisi istehsalının həcmi ümumi istehsalın 46,7 faizini təşkil etmişdir. 2020-ci ildə ölkə üzrə günəş elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin 89,3 faizi muxtar respublikada istehsal olunmuşdur.

Muxtar respublikada bərpa olunan enerji istehsalı sahələrinin yaradılması istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq 2021-ci ilin yanvar-fevral aylarında Ordubad rayonunda 36 meqavat gücündə Ordubad və 15,6 meqavat gücündə Tivi Su Elektrik stansiyalarının, Şərur rayonunda 5 meqavat gücündə Günəş Elektrik Stansiyasının, Culfa rayonunda 1 meqavat gücündə Külək-Günəş Hibrid Elektrik Stansiyasının tikintisi davam etdirilmişdir.

Muxtar respublikada bərpa olunan enerji istehsalı sahələrinin yaradılmasının əhəmiyyətini qeyd edən Ali Məclisin Sədri demişdir: ***“Muxtar respublikada enerji təhlükəsizliyi sahəsində qarşıda duran əsas vəzifə dünya dövlətlərinin də xüsusi diqqət yetirdiyi bərpa olunan enerji ilə təminat işidir. Ona görə də muxtar respublikada günəş enerjisindən, eləcə də mövcud hidroenerji potensialından səmərəli istifadə olunur, dağ çaylarında yeni su elektrik stansiyaları tikilir”.***





Cari ilin yanvar-fevral aylarında istehlakçıların keyfiyyətli elektrik enerjisi ilə təmin olunması və infrastrukturun yenilənməsi istiqamətində muxtar respublikada 4,4 kilometr uzunluğunda 35,10 və 0,4 kilovoltluq yeni elektrik xətləri çəkilmiş, 1 transformator yarımstansiyası quraşdırılmış, Şərur və Culfa transformator təmiri sexlərində 19 transformator təmir edilərək şəbəkələrə qaytarılmışdır.

Şərur rayonunun Maxta və Muğanlı kəndlərinin hər birində 35/10 kilovoltluq bir transformator yarımstansiyasının, Şərur şəhərində yüksəkgərginlikli elektrik xətti üçün tunelin tikintisi, Babək rayonunda, Naxçıvan və Şərur şəhərlərində smartkarttipli elektrik sayğaclarının quraşdırılması işləri davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Növbəti aktivlər təqdim olunub



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mart ayı ərzində muxtar respublika üzrə 28 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib və 14 nəfərin hər birinə 2 baş iribuynuzlu, 8 nəfərin hər birinə 20 baş xırdabuynuzlu mal-qara, 2 nəfərə dərzi, 1 nəfərə qaynaqçı avadanlıqları və ləvazimatları, 3 nəfərə isə miniyerşumlayan aqreqatlar verilib. Özünüməşğulluğu təmin edilmiş şəxslərdən 3 nəfərini cəzaçəkmə müəssisəsindən azad olunanlar, 2 nəfərini isə gənclər təşkil edib. Eyni zamanda təsərrüfatlarını nümunəvi şəkildə inkişaf etdirdiyinə görə 2 nəfər həvəsləndirmə tədbirlərinə cəlb olunub.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təsdiq etdiyi müvafiq Dövlət proqramlarının icrası çərçivəsində, özünüməşğulluğa cəlb edilmiş ailələrin təsərrüfatlarında qısa müddət ərzində artımlar olub, bu da həmin ailələrin sosial rifah halının yaxşılaşmasına müsbət təsir göstərib. Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan şəxslərə göstərilən dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə çıxış edənlər ötən dövr ərzində proqramın icrası istiqamətində görülən işlərdən danışıb, əldə olunan nəticələrdən bəhs ediblər.

Daha sonra aktiv verilmiş ailə təmsilçilərinə müvafiq sənədlər təqdim olunub.

Tədbirdə iştirak edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Daşınmaz əmlak obyektləri üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır

***Muxtar respublikada torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi, mülkiyyət hüquqlarının qeydiyyatı zamanı operativliyin təmin edilməsi cari ilin fevral ayında da Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən diqqətdə saxlanılmışdır.***

“2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı”na uyğun olaraq ötən ay Sədərək, Şərur və Kəngərli rayonları ərazisində mövcud olan kanal, kollektor və drenaj şəbəkələrinin əhatə etdiyi ərazilərin topoqrafik planları hazırlanmışdır. Ailə təsərrüfatlarında əkin atlaslarına uyğun əkinlərin keçirilməsinə nail olunması və torpaqlardan səmərəli istifadə edilməsi məqsədilə Culfa rayonunda bələdiyyə sədrlərinin, ailə təsərrüfatı başçılarının, torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin iştirakı ilə seminar-müşavirə keçirilmişdir.

Ay ərzində torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Şərur rayonunun Yengicə, Şəhriyar, Dəmirçi və Arbatan, Kəngərli rayonunun Qarabağlar və Şahtaxtı kəndlərinin ərazisində monitorinqlər başa çatdırılmış, müəyyən edilmiş qanun pozuntularının aradan qaldırılması istiqamətində iş aparılmışdır. Kəngərli rayonunun Böyükdüz, Qabıllı və Yurdçu kəndlərinin ərazisində aşkar olunmuş torpaqdan qanunsuz istifadə faktlarının aradan qaldırılması istiqamətində işlər davam etdirilmişdir.

Ötən ay 574 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınmış, 448 texniki sənəd hazırlanmış, yeni yaranmış 29 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 88 torpaq sahəsinin plan ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. Səyyar xidmət vasitəsilə 8 yaşayış məntəqəsində 43 vətəndaşın müraciətinə baxılmış, 4 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, 8 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilmiş, təsərrüfat fəaliyyəti ilə əlaqədar 1 ailə təsərrüfatının icarəsinə verilmiş 2,33 hektar torpaq sahəsi üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

İnkişaf edən bölgələrimiz

# Düşmənə gözdağıdır SƏDƏRƏK



***Doğma yurdumuz Naxçıvan müstəqillik illərində, sözün həqiqi mənasında, özünün yeni inkişaf mərhələsinə qədəm qoyub: insanların yaşayış səviyyəsi yüksəlib, həyata baxışları köklü surətdə dəyişib. Bu illər ərzində iqtisadiyyatımızın gücləndirilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini verib və bu tədbirlər ardıcıl davam etdirilir. Sosial-iqtisadi inkişafımızı şərtləndirən amillər içərisində ən başlıcası isə muxtar respublikada böyük vüsət alan quruculuq işləridir. Heç bir fərq qoymadan bütün şəhər və kənd yaşayış məntəqələrində görülən bu işlər doğma yurdumuzun simasını əsaslı surətdə dəyişir. Və bu dəyişikliklər də insanların həyat şəraitini daha da yaxşılaşdırır. Sosial-iqtisadi sahədə görülmüş işlərin təhlili göstərir ki, Sədərək rayonunda da bütün istiqamətlərdə uğurlu nəticələr əldə edilib. Təkcə ötən ilin iqtisadi göstəricilərinə nəzər salsaq, bunu aydın görərik. Belə ki, 2020-ci ildə Sədərək rayonunda iqtisadiyyatın şaxələndirilməsi və sosial sahənin inkişafı üzrə həyata keçirilən tədbirlər 2020-ci ildə də davam etdirilib, yüksək nəticələr əldə olunub.***



Ümumi inkişafın əsas göstəricisi kimi 2020-ci ildə 2019-cu ilə nisbətən sənaye məhsulu 0,7 faiz, kənd təsərrüfatı məhsulu 4,5 faiz, informasiya və rabitə xidmətlərinin dəyəri 6,1 faiz artıb. Müasir sənaye müəssisələrinin yaradılması və sənayenin infrastruktur təminatının yaxşılaşdırılması məhsul istehsalının həcmini artırıb. 2020-ci ildə rayonda 4 milyon 854 min 800 manat dəyərində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da əvvəlki ildəki göstəricini 0,7 faiz üstələyib.

### *Abadlıq və su təchizatı yaxşı yaşayışın təməlidir*

Sədərək rayonunda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün 2020-ci ildə bütün maliyyə mənbələrindən əsas kapitala 24 milyon 972 min 400 manat həcmində investisiya yönəldilib ki, bunun da 22 milyon 874 min 500 manatı və ya 91,6 faizi tikinti-quraşdırma işlərinin payına düşüb. Sədərək rayonunun Heydərabad qəsəbəsində əsgəri-yaşayış kompleksinin yenidən qurulması başa çatdırılıb, zabit-gizir ailələrinə yeni xidməti mənzillər təqdim olunub.

2020-ci ildə rayon ərazisində 8 müxtəlif təyinatlı obyektin tikintisi və yenidən qurulması yekunlaşıb, 6 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması davam etdirilib. Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərib. 2020-ci ildə əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 4 min 341 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib. Sədərək rayon mərkəzində və ətraf kəndlərdə içməli su təchizatı və kanalizasiya sistemlərinin tikintisi davam etdirilib.

Onu da qeyd etmək yerinə düşər ki, ötən illər ərzində rayon mərkəzi Heydərabad qəsəbəsində yeni binalar tikilib, küçələr salınıb, yaşıllıq zolaqları yaradılıb. İndi qəsəbəyə xüsusi gözəllik və yaraşıq verən həmin obyektləri saymaqla qurtarmaq olmaz: Heydər Parkı, rayon Tarix-Diyarşünaslıq Muzeyi, Şahmat məktəbi, qəsəbə tam orta məktəbi, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının inzibati binası, rayon Məhkəməsi, Prokurorluq, Polis Şöbəsi üçün inzibati binalar və sair. Genişmiqyaslı tikinti-abadlıq və quruculuq işləri bu gün də eyni sürət və keyfiyyətlə davam etdirilməkdədir. Heydərabad qəsəbəsində inşa olunan yeni yaşayış binası Ermənistanla sərhəddən cəmi bir kilometr məsafədə yerləşir. Zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarət olan binada 48 mənzil sədərəklilərin istifadəsinə verilib. İnşası başa çatdırılan Bayraq Meydanı, teleötürücü, inşası davam edən yeni su-kanalizasiya sisteminin çəkilişi də dövlət qayğısının daha bir nümunəsidir.



### *Kənd təsərrüfatının inkişafı əhalinin məşğulluğunun əsas göstəricisidir*

Bərəkətli torpağı, zəhmətkeş insanları ilə həmişə öz sözünü deyən Sədərək rayonunda kənd təsərrüfatı məhsullarının istehsalının artırılması məqsədilə aqrar sektorda kompleks tədbirlər həyata keçirilməsinin nəticəsidir ki, daxili bazarda məhsul bolluğu var. Rayonda 2020-ci ilin məhsulu üçün 3 min 166 hektar sahədə əkin aparılıb. Ötən dövrdə rayonda taxılçılıq üstün istiqamət kimi saxlanılıb və 2020-ci ilin məhsulu üçün 2 min 357 hektar sahədə taxıl əkini aparılıb ki, bunun 1 min 621 hektarını buğda,736 hektarını isə arpa təşkil edib. Çörəkdən sonra ikinci ən çox istehlak edilən kartofun əkin sahələri də genişləndirilib, kartofçuluğun inkişafında da müsbət dinamika saxlanılıb və 2020-ci ildə 101 hektar kartof əkilən sahədən 1224 ton məhsul yığılıb. Məhsuldarlıq orta hesabla 121,2 sentner/hektar olub. 2020-ci ildə 73 ton dənli-paxlalılar (qarğıdalısız), 676 ton dən üçün qarğıdalı, 54 ton dən üçün günəbaxan, 3594 ton tərəvəz, 2215 ton ərzaq üçün bostan məhsulları istehsal edilib.

Sədərək rayonunda əhalinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə geniş imkanlar vardır. Ötən il barverən meyvə bağlarından 598 ton məhsul yığılıb. Üzümçülüyün inkişafı istiqamətində yerli resurslardan istifadə olunmaqla üzüm bağlarının salınması üçün tinglərin becərilməsinə başlanılıb, yeni üzüm bağları salınıb. Barverən üzüm bağlarından 1512 ton məhsul yığılıb ki, bu da 2019-cu illə müqayisədə 1,1 faiz çoxdur. 2020-ci ildə 1 hektar sahədə təkrar əkin aparılıb.

Ötən il də dövlət dəstəyindən bəhrələnən kənd sakinləri verilən kreditlər hesabına öz təsərrüfatlarını genişləndirib. Bütün bunların nəticəsidir ki, rayonda heyvandarlıq məhsullarının istehsalı ilbəil artır. Rayonun Sədərək və Qaraağac kəndlərində elə ev tapılmaz ki, bir-iki baş mal-qarası olmasın.



Heyvandarlığın inkişafını daim diqqətdə saxlanılmaqla iribuynuzlu mal-qaranın və xırdabuynuzlu heyvanların baş sayının, ət və süd məhsullarının istehsalının həcminin artmasına müsbət təsir göstərib. 1 yanvar 2021-ci il tarixə rayonun bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 3029 baş olub ki, bu da 1 yanvar 2020-ci illə müqayisədə 1,4 faiz və yaxud 42 baş çoxdur. 1 yanvar 2021-ci il tarixə Sədərək rayonunda 17275 baş qoyun və keçi olub ki, bu da 1 yanvar 2020-ci illə müqayisədə 1,7 faiz və yaxud 288 baş çoxdur. 2020-ci ildə rayonda diri çəkidə 467 ton ət, 1881 ton süd, 1 milyon 442 min yumurta, 22,6 ton yun istehsal edilib. 2019-cu illə müqayisədə ət istehsalı 2,0 faiz, süd istehsalı 1,7 faiz, yumurta istehsalı 1,0 faiz, yun istehsalı 1,3 faiz artıb. 2020-ci ildə rayonda 18 ton bal istehsal olunub ki, bu da 2019-cu illə müqayisədə 5,9 faiz çoxdur. Ümumilikdə, rayonda 20 milyon 215 min 200 manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilib ki, bu da 2019-cu ilin göstəricisindən 4,5 faiz çoxdur. 2020-ci ildə meliorasiya və irriqasiya sistemlərinin yenidən qurulması diqqətdə saxlanılıb, Sədərək rayonunda işğaldan azad edilmiş 73 hektar torpaq sahəsində meliorativ tədbirlər aparılaraq əkin dövriyyəsinə daxil edilib.

### *Nəqliyyat, informasiya-rabitə və energetika sahəsində də yeniliklər əldə edilib*

Xidmət sektorunun vəziyyəti də əhalinin həyat səviyyəsini müəyyən edən əsas amillərdən biridir. Rayonun nəqliyyat sektorunda müasir nəqliyyat sisteminin qurulması, nəqliyyat sektorunun səmərəli idarə olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. 2020-ci ildə rayonda avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 482 min 100 ton yük, 846 min 200 nəfər sərnişin daşınıb. Yük və sərnişin daşınmasından, bütövlükdə, 1 milyon 746 min 600 manat gəlir əldə edilib. İnformasiya və rabitə sahəsində yeni texnologiyaların tətbiqi bu sahə üzrə göstərilən xidmətlərin əhatə dairəsini genişləndirib. İnformasiya və rabitə xidmətlərinin həcmi 2019-cu illə müqayisədə 6,1 faiz artaraq 966 min 600 manat olub. 2020-ci ildə Sədərək rayonunda 13 telefon çəkilib ki, bu da 2019-cu ilə nisbətən 8,3 faiz çoxdur. Ötən dövrdə informasiya və rabitə sahəsinin inkişafı istiqamətində Sədərək rayonunda Radio-Televiziya Ötürücü Stansiyası üçün binanın tikintisi davam etdirilib. 1 yanvar 2021-ci il tarixə rayonda 2 min 306 əhali abonenti mavi yanacaqla təmin olunub.

### *Sahibkarlıq fəaliyyəti və məşğulluq məsələləri diqqətdə saxlanılır*

Rayonda sahibkarlığın inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilməkdə davam etdirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş və icrası uğurla başa çatdırılmış "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaradıb. Bunun nəticəsi olaraq rayonda 6 yeni iş yeri açılıb. 2020-ci ilin yanvar-noyabr ayları ərzində ortaaylıq əməkhaqqının məbləği 569,4 manat təşkil edib ki, bu da 2019-cu ilin müvafiq dövründəki göstəricidən 9,2 faiz çoxdur. Səmərəli məşğulluq imkanlarının yaradılması əhalinin alıcılıq qabiliyyətini yüksəldib, əmtəə dövriyyəsinin həcmi genişlənib. 2020-ci ildə rayonda pərakəndə əmtəə dövriyyəsi 45 milyon 876 min 600 manata çatıb. Pərakəndə əmtəə dövriyyəsinin 4,5 faizini və yaxud 2 milyon 69 min 600 manatını iaşə əmtəə dövriyyəsi təşkil edib. 2020-ci ildə əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 5 milyon 283 min 600 manata çatıb. Ödənişli xidmətlərin 21,8 faizi və yaxud 1 milyon 152 min 100 manatı məişət xidmətlərinin payına düşür. Rayonda pensiya və müavinətlərin dayanıqlı maliyyə təminatı formalaşdırılıb, 2020-ci ildə Dövlət Sosial Müdafiə Fondunun publik hüquqi şəxsin rayon şöbəsi tərəfindən pensiya və müavinətlərin ödənilməsinə 5 milyon 59 min manatdan artıq vəsait yönəlib ki, bu da bir il öncəki göstəricidən 21 faiz çoxdur. Hesabat dövrünün sonuna Sədərək rayonunda Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə sağlamlığını itirən 2 nəfər mənzil, 2 nəfər isə avtomobil ilə təmin olunub. Əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi demoqrafik vəziyyətə də müsbət təsir göstərib, rayon əhalisinin sayı 1 dekabr 2020-ci il tarixə 16 min 140 nəfərə çatıb.

Bir vaxtlar çox yox, 30 il əvvəl bu gözəl yurd xain düşmənlərimizin ucbatından viranəyə dönmüşdü. Müstəqilliyini yenicə qazanmış Azərbaycanın ayrılmaz hissəsi, doğma diyarımızın bu sərhəd bölgəsi ovaxtkı rəhbərlərin idarəsizliyi ucbatından itirilmək üzrə ikən bir Günəş doğuldu Azərbaycanımızın – Naxçıvanımızın səmasında. O böyük insan, xalqımızın dəyərli oğlu, ümummilli liderimiz Heydər Əliyev idi. Naxçıvanlılar Ona özləri qədər inanır, bizi işıqlı sabaha aparacağına əmin idilər. Elə belə də oldu ...






*Və budur, XXI əsrin 2021-ci ilindəyik. İnkişaf etmiş Azərbaycanın müasirləşmiş Naxçıvanın, düşmənə gözdağına çevrilən, ulu öndərin "qeyrət qalası" adlandırdığı Sədərəyindəyik. Vəli dağından bu qədim Oğuz yurdunu seyr etdikcə gördüyümüz gözəl mənzərə qəlbimizə sevinc gətirir. Bu gün bu qədim yurdda yaşayan rayonun hər bir sakini əmindir ki, Vətən müharibəsində qazanılan Zəfərdən öz payını alacaq olan Sədərəyin də gələcək günləri daha da firavan, gözəl olacaq. Ötən il Naxçıvanın Qeyrət Qalası olan Sədərəyin rayon statusu almağının 30 illik yubileyi münasibətilə dövlətimizin rayon sakinlərinə ərmağanı olaraq Naxçıvan- Sədərək magistral yolunun sağ tərəfində, qədim yurdun girişində Bayraq Meydanının inşasına başlanılıb. Çox yaxında istifadəyə veriləcək bu meydanda xalqımızın, bütün dünya azərbaycanlılarının azadlığının, şərəf və ləyaqətinin, milli birliyinin simvolu olan Azərbaycan dövlətinin hörmət və ehtiramının tək ünvanı, millətimizin və dövlətimizin tanıtım simvolu, hər zaman ucalarda tutulacaq və heç vaxt enməyəcək milli dəyərimiz olan ay-ulduzlu, üçrəngli zəfər bayrağı dalğalandıqca düşmənə gözdağı olacaq, qardaşa, dosta isə qürur verəcək.*

**Ramiyyə ƏKBƏROVA**

Yeni nəşrlər

# Daş kitabımız Gəmiqaya haqqında dəyərli kitab



*Naxçıvan Muxtar Respublikasının yaranmasının 97-ci ildönümü münasibətilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir:* ***“Naxçıvanın tarixi, etnoqrafiyası, mədəniyyəti və təbii sərvətləri ciddi tədqiqat predmetinə çevrilmiş, minlərlə kitab nəşr olunmuş, Naxçıvanşünaslıq zənginləşdirilmiş, abidələrimiz bərpa edilmiş, milli dəyərlərimizin qorunub yaşadılmasına diqqət artırılmışdır”.***

Bu gün böyük minnətdarlıq hissi ilə qeyd etməliyik ki, qədim diyarımızın tarixi keçmişinin qorunub yaşadılmasında, bu günü və gələcəyi ilə bağlı böyük işlərin görülməsində Ali Məclis Sədrinin əvəzsiz xidmətləri vardır.

Dünyanın ən qədim yaşayış məskənlərindən olan Naxçıvan həm də tarix və mədəniyyət abidələri ilə zəngindir. 5-7 minillik şəhərsalma mədəniyyətinə malik olan Naxçıvanda tarixi abidələrimizi qorumaq, bərpa etmək, bu abidələrlə bağlı sanballı elmi kitablar yazıb nəşr etdirmək tarixçi, arxeoloq, sənətşünas alimlərimizi həmişə dərindən düşündürmüşdür. Bu baxımdan 2020-ci ildə “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində çap olunan “Gəmiqaya qayaüstü rəsmləri” kitabı olduqca dəyərli tədqiqat əsəridir. Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, sənətşünas Nizami Alıyevin müəllifi olduğu bu kitab Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “2021-ci il üçün elm və mədəniyyət sahələrində Naxçıvan Muxtar Respublika mükafatlarının verilməsi haqqında” 2021-ci il 8 fevral tarixli Sərəncamı ilə mədəniyyət sahəsi üzrə Naxçıvan Muxtar Respublika mükafatına layiq görülmüşdür.

Kitab Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında” 2001-ci il 26 aprel tarixli Sərəncamı ilə başlayır. Sərəncamda qeyd olunduğu kimi, Gəmiqaya abidəsinin tədqiqi işlərinə ötən əsrin 70-ci illərindən daha dərindən başlanılmışdır. Ulu öndər Heydər Əliyev tariximizin, soykökümüzün öyrənilməsinə xüsusi əhəmiyyət verdiyindən tarixi abidələrimizə münasibət də həmin dövrdən kökündən dəyişilmişdir. Sərəncamdan sonra AMEA Naxçıvan Bölməsi və Naxçıvan Dövlət Universiteti əməkdaşlarından ibarət elmi ekspedisiya təşkil edilmiş, Gəmiqaya ətrafındakı abidələr və Gəmiqaya təsvirləri qeydə alınmış, abidələrin tədqiqinə həsr olunmuş elmi konfrans və simpoziumlar keçirilmiş, Gəmiqayaya yol çəkilmişdir. Ali Məclisin Sədri cənab Vasif Talıbovun 2001, 2002, 2005, 2013-cü illərdə Gəmiqayada olması, burada tədqiqat aparan alimlərlə görüşməsi, onlara tədqiqat işləri ilə bağlı tövsiyələr verməsi tarixi keçmişimizə sevginin bariz ifadəsi kimi qiymətləndirilir. 2013-cü il dekabr ayının 21-də Gəmiqaya Dövlət Tarix-Bədii Qoruq Muzeyinin açılışında iştirak etməsi Ali Məclis Sədrinin Gəmiqaya abidələrinə verdiyi ən yüksək dəyərdir.

Gəmiqaya abidələri özündə tarixlə yanaşı, həm də böyük bir sivilizasiyanı yaşadır. Tədqiqatçı-alim Əjdər Fərzəli Gəmiqaya-Qobustan yazılarını analiz edərkən belə bir qənaətə gəlir ki, bu abidələr qədim yunan, hind, Misir, Şumer və başqa mədəniyyətlərdən qabaq meydana gəlmiş, özündən sonra gələn digər mədəniyyətlərə çox güclü təsir göstərmişdir.

2016-cı ilin avqust ayında AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi mütəxəssislərindən ibarət “Gəmiqaya” ekspedisiyası yaradılmışdır. Ekspedisiya qayaüstü rəsmlərin yayıldığı 136 hektar ərazidə olmuş, 2040 daş üzərində 7422 təsvir qeydə almışdır. Bu tədqiqatların nəticəsi kimi “Gəmiqaya qayaüstü rəsmləri” adlı fundamental kitab ərsəyə gəlmişdir. Kitabın layihə rəhbəri, elmi tədqiqatların ideya təşəbbüskarı və himayədarı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovdur.



Kitabın müəllifi “Gəmiqaya” ekspedisiya qrupunun rəhbəri, sənətşünas Nizami Alıyev, fotolar və qrafik cızmaların müəllifləri Nizami Alıyev və Arzu Novruzovdur. Kitabda Qaranquş, Camışölən, Nuh Nəbi yurdu, Qız-gəlin çuxuru, Göllər və digər yaylaqlardakı təsvirlər haqqında məlumatlar öz əksini tapmışdır. Nizami Alıyev 2016-cı ilin avqust-sentyabr aylarında “Gəmiqaya” ekspedisiyası üzvləri tərəfindən aparılan tədqiqatlar zamanı rast gəlinən faktları da bölgələr üzrə şərti olaraq kitabda qeyd etmişdir. Bu isə kitabın həm dəyərini, həm də daha dəqiq faktlara söykəndiyini təsdiqləməklə yanaşı, “Gəmiqaya qayaüstü rəsmləri”nin gələcək tədqiqatçılar üçün çox böyük mənbə olduğunu göstərir. Gəmiqayada təsvir olunan daşların sayı 2029, daşlar üzərindəki rəsmlərin və işarələrin sayı 7378-dir.





“Aşağı Baca”, “Aşağı Göllər”, “Orta Göllər”, “Yuxarı Göllər”, “Qaranquş I” (yolun üstü), “Qaranquş II” (yolun altı), “Nuh Nəbi yurdu”, “Nazağa”, “Qız-gəlin çuxuru” bölgələrində hər bir daşın və daşlar üzərindəki təsvirlərin sayını göstərən müəllif həmin yerlərdən muzeylərə aparılan daşların və işarələrin sayını da qeyd etməklə onların dəqiq ünvanını oxucuya çatdırır. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən muzeylərin bəzilərində Gəmiqayadan aparılan daşlar və rəsmlər nümayiş etdirilir. Qaranquş yaylağından muzeylərə üzərində 44 rəsm və işarə olan 11 daş aparılıb. Bu daşlar və təsvirlər Gəmiqaya Dövlət Tarix-Bədii Qoruq Muzeyində, Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey kompleksində qorunub saxlanılır. Beləliklə, müəllif belə bir nəticəyə gəlir ki, muzeylərə aparılmış daşlar üzərindəki təsvirlərin və işarələrin sayını da ümumi saya əlavə etsək, Gəmiqaya rəsmlərinin yayıldığı areal 136,58 hektar, üstü təsvirli olan daşların sayı 2040, daşlar üzərindəki rəsmlərin sayı isə 7422-dir. Bu rəsmlərdən 6000-i ilk dəfədir ki, bu kitabda çap olunub.

Azərbaycan, ingilis və rus dillərində nəşr olunan 576 səhifəlik dəyərli kitab Gəmiqaya abidəsinin dünyada tanıdılması istiqamətində çox sanballı tədqiqat əsəridir. Bu abidə ayrı-ayrı dövrlərdə dünya alimlərinin də nəzər-diqqətini özünə cəlb etmiş, 2005-ci il iyul ayının 17-dən 20-nə kimi Gəmiqayada beynəlxalq ekspedisiya fəaliyyət göstərmiş və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə yekun nəticələrinin müzakirəsi aparılmışdır. Albom-kataloqda təsvirlərin yer alması, hər bir təsvir haqqında üç dildə məlumat verilməsi olduqca əhəmiyyətlidir. Gəmiqaya rəsmlərində insan fiqurları ilə yanaşı, ilan, keçi, maral, bəbir, öküz, qurd, at, quş və sair heyvan təsvirləri də var. İnsan təsvirləri onların gündəlik həyat tərzlərini, inanclarını, mifik təfəkkürlərini, eləcə də xalqımızın milli mədəniyyətini, tarixi keçmişini öyrənmək üçün böyük əhəmiyyət kəsb edir. Kitab Naxçıvanın keçmişi və bu günü haqqında tarixi həqiqətləri elmi şəkildə söyləməklə, bu torpağa göz dikənlərə bir həqiqəti çatdırır ki, bu diyar şanlı tarixi və dövlətçilik ənənələri olan müqəddəs məkandır.

*“Gəmiqaya qayaüstü təsvirləri” kitabının Naxçıvan Muxtar Respublika mükafatına layiq görülməsi münasibətilə müəllifi, sənətşünas Nizami Alıyevi ürəkdən təbrik edir, ona daha böyük yaradıcılıq uğurları arzulayırıq.*

**Asim YADİGAR**
***Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Əməkdar mədəniyyət işçisi***

*Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunmasında ötən ay da diqqətdə saxlanılmış, bununla əlaqədar bir sıra tədbirlər həyata keçirilmişdir.*

# Ailə, qadın və uşaq hüquqları qorunur

Muxtar respublikada yaşayan ailələr, qadın və uşaqlar haqqında məlumatlar komitədə yaradılmış bazaya əlavə edilmiş və təhlili aparılmışdır. Məlum olmuşdur ki, cari ilin yanvar ayında muxtar respublikada ailələrin sayı 98198 olmuşdur ki, bu da ötən illə müqayisədə 405 çox ailə deməkdir. Bəhs olunan dövrdə qadınların sayı 231021 nəfərə çatmışdır ki, bu da ötən illə müqayisədə 989 nəfər çox, uşaqların sayı isə 165288 nəfər olmuşdur ki, bu da ötən illə müqayisədə 742 nəfər çoxdur.

Hesabat ayında ailələrin hüquqlarının qorunması, sosial problemlərinin öyrənilməsi və həll edilməsi diqqətdə saxlanılmışdır. Belə ki, Naxçıvan şəhərində yaşayan aztəminatlı Baxşəliyevlər ailəsinə baş çəkilmiş, onların problemləri ilə maraqlanılmış və ailəyə ehtiyaclarına uyğun köməklik göstərilmişdir.

“Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi” layihəsinin davamı olaraq “Naxçıvan Muxtar Respublikasında COVID-19-un təsirinə məruz qalmış qadınlara iqtisadi dəstək” layihəsi çərçivəsində sərmayə kapitalı verilmiş 39 qadından 6-nın yaşadığı ünvanlarda sərmaye kapitalından düzgün istifadə etmələri ilə bağlı monitorinq keçirilmişdir.

Komitə və Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Qadınlar Şurasının təşkilatçılığı ilə Sədərək rayonunda yaşayan aztəminatlı ailənin üzvü, məhdud fiziki imkanlı qadınlara toxuculuq peşəsinin öyrədilməsi ilə bağlı təlim keçirilib. Təlimin keçirilməsində məqsəd aztəminatlı ailənin üzvü, məhdud fiziki imkanlı qadınları sosial layihələrə cəlb etmək, onların özünüməşğulluğunu təmin etmək, ailə büdcəsinin yaxşılaşdırılmasına köməklik göstərilməsidir. İstedadlı toxucu qadın Gülsüm Kəngərli əyani vasitələrdən istifadə etməklə iştirakçılara toxuculuq peşəsinin sirlərini öyrətmişdir. Təlimdə Sədərək rayonunda yaşayan 6 aztəminatlı ailədən olan 9 məhdud fiziki imkanlı qadın və Sədərək Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin 4 dərnək rəhbəri iştirak etmişlər.

Ötən ay uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına 706 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir. Sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı işlər görülmüş, 3 uşaq məktəbdənkənar təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə göndərilmişdir.

Kəngərli rayonunda fəaliyyət göstərən məktəbəqədər, ümumtəhsil məktəbləri və məktəbdənkənar müəssisələrdə sanitar-gigiyenik vəziyyətlə bağlı bu sahəyə məsul olan şəxslərin iştirakı ilə maarifləndirici seminar keçirilmiş, müvafiq sahə ilə əlaqədar hazırlanmış 50 broşür seminar iştirakçılarına paylanılmışdır.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının qorunması ilə əlaqədar 4 uşaq müəssisəsində və valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 4 uşağın evində monitorinq keçirilmiş, aşkar edilən nöqsanlar aktlaşdırılmış, tədbir görülməsi üçün aid orqanlara məktub göndərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Milli Teatr Günü qeyd olunub

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı Milli Teatr Günü münasibətilə Nəbi Xəzrinin “Burla xatın” əsəri əsasında hazırlanmış eyniadlı tamaşanı onlayn formatda tamaşaçılara təqdim edib.



Qeyd edək ki, Azərbaycan ədəbiyyatının tanınmış şair-dramaturqlarından olan Nəbi Xəzrinin “Burla xatın” əsəri “Kitabi-Dədə Qorqud” dastanının “Qazan xanın evinin yağmalanması” boyunun motivləri əsasında yazılmışdır. Əsərdə vətənpərvərlik ruhu, düşmənə nifrət hissi və Oğuz elinin qadınlarının mübarizliyi öz əksini tapmışdır.

Tamaşanın quruluşçu rejissoru Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyev, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədovdur.

Səhnə əsəri Naxçıvan Dövlət Televiziyası ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin internet resurslarında canlı olaraq yayımlanmışdır. Onlayn formatda təqdim olunan tamaşa izləyicilər tərəfindən maraqla qarşılanıb.

Naxçıvan Dövlət Universitetində bu münasibətlə keçirilən tədbirdə universitetin rektoru, dosent Elbrus İsayev bildirib ki, universitetdə Aktyorluq sənəti ixtisasının fəaliyyət göstərməsi teatr sahəsində kadr hazırlığı istiqamətində görülən işlərin ən bariz nümunəsidir. Universiteti bu ixtisas üzrə bitirən tələbələrin muxtar respublikada teatr sahəsinə verdiyi töhfələrdən, Tələbə Teatr Studiyasının uğurlu fəaliyyətindən danışan rektor deyib ki, Aktyorluq ixtisası ilə yanaşı, gələcəkdə rejissorluq fəaliyyəti istiqamətində də peşəkar mütəxəssislərin hazırlanması qarşıya bir tələb kimi qoyulub.

Tədbirdə Teatr və mədəniyyətşünaslıq kafedrasının müəllimi, Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyev, Aktyor ifaçılığının tarixi və nəzəriyyəsi ixtisası üzrə I kurs magistr Vəfa Qurbanzadə çıxış ediblər.

Sonra Aktyor sənəti ixtisası üzrə IV kurs tələbələrinin ifasında Səməd Vurğunun “Vaqif” dramından bir hissəyə baxılıb.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi dövlət orqanlarında vakant vəzifələrin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 11 mart-12 aprel 2021-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər 70 manat ödəniş məbləğini "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək mərkəzə təqdim edilməlidir.

Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifələrinin tutulması üçün esse imtahanı və müsahibə keçiriləcəkdir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar mərkəzin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dim@nmr.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Dövlət orqanı və struktur bölmə | Ştat sayı | Təsnifat | Vəzifə |
|---|---|---|---|---|
| | **1. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi** | | | |
| 200205 | Təbii sərvətlərdən istifadənin tənzimlənməsi sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 200215 | Ekoloji ekspertiza və monitorinq sektoru | 1 | 6 | aparıcı ekspert |
| 200223 | Bioloji sərvətlərin bərpası, artırılması və hesaba alınması sektoru | 1 | 6 | baş məsləhətçi |
| 200315 | Meşələrin bərpası, mühafizəsi və meşəsalma sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 200325 | Geologiya və yer təkinin mühafizəsi sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 200415 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi, atmosfer havasının mühafizəsi üzrə | 1 | 6 | aparıcı məsləhətçi |
| 200435 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi, ovşünas | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | 7 | | |
| | **2. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | | | |
| 210026 | Aparat. Hüquqşünas | 1 | 6 | məsləhətçi |
| 210103 | Sosial təminat və əlillərin sosial müdafiəsi şöbəsi | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | 2 | | |
| | **3. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi** | | | |
| 220216 | Kütləvi bədən tərbiyəsi və idman şöbəsi | 1 | 6 | məsləhətçi |
| | **Cəmi:** | 1 | | |
| | **4. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi** | | | |
| 230063 | Hüquq sektoru | 1 | 6 | baş məsləhətçi |
| 230807 | Maliyyə və təsərrüfat şöbəsi | 1 | 6 | baş mühasib |
| | **Cəmi:** | 2 | | |
| | **5. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi** | | | |
| 300305 | Fitosanitar nəzarəti, bitkilərin mühafizəsi və karantini şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | 1 | | |
| | **6. Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi** | | | |
| 240033 | Aparat | 1 | 6 | baş məsləhətçi-mühasib |
| 240203 | Gəlirlərin proqnozu şöbəsi | 1 | 6 | baş məsləhətçi |
| 240305 | Xəzinə əməliyyatı sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 240325 | Dövlət satınalmalarına nəzarət sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 240703 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | 5 | | |
| | **7. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi** | | | |
| 250013 | Aparat. Hüquqşünas | 1 | 6 | baş məsləhətçi |
| 250115 | Mədəniyyət və mədəni irs şöbəsi, informasiya resurslarının idarə edilməsi üzrə | 1 | 6 | aparıcı məsləhətçi |
| 250603 | İncəsənət və təhsil müəssisələri ilə iş şöbəsi, musiqinin inkişafı üzrə | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | 3 | | |
| | **8. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi** | | | |
| 270023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| 270215 | Telekommunikasiya və radiotezliklərin qeydiyyatı şöbəsi, radiotezliklər üzrə | 1 | 6 | aparıcı məsləhətçi |
| 270315 | Məlumat hesablama və informasiya texnologiyaları şöbəsi, şəbəkə üzrə | 1 | 6 | aparıcı məsləhətçi |
| 270505 | Dövlət tədbirlərinin texniki təminatı sektoru, mühəndis | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | 4 | | |
| | **9. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi** | | | |
| 290105 | Ümumtəhsil məktəbləri və liseylərlə iş üzrə şöbə | 2 | 6 | aparıcı məsləhətçi |
| 290106 | Ümumtəhsil məktəbləri və liseylərlə iş üzrə şöbə | 1 | 6 | məsləhətçi |
| 290706 | Təhsilin idarəolunmasının məlumat sistemi və şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə sektor, informasiya-kommunikasiya texnologiyaları üzrə | 1 | 6 | məsləhətçi |
| | **Cəmi:** | 4 | | |
| | **10. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi** | | | |
| 380803 | Tarixi abidələrin bərpası üzrə sektor | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | 1 | | |
| | **11. Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti** | | | |
| 420115 | Standartlarla və texniki şərtlərlə iş sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 420415 | Qida zəncirinə nəzarət sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 420416 | Qida zəncirinə nəzarət sektoru | 1 | 6 | məsləhətçi |
| 420423 | Sertifikatlaşdırma və qeydiyyat sektoru | 1 | 6 | baş məsləhətçi |
| 420426 | Sertifikatlaşdırma və qeydiyyat sektoru | 1 | 6 | məsləhətçi |
| 420503 | Uyğunluğun qiymətləndirilməsi şöbəsi | 2 | 6 | baş məsləhətçi |
| 420515 | Akkreditasiya sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 420903 | Rəqabətin qorunması və monitorinqi sektoru | 1 | 6 | baş məsləhətçi |
| 420913 | İstehlak bazarına nəzarət və istehlakçı hüquqlarının müdafiəsi sektoru | 1 | 6 | baş məsləhətçi |
| 420915 | İstehlak bazarına nəzarət və istehlakçı hüquqlarının müdafiəsi sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | 11 | | |
| | **12. Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti** | | | |
| 450305 | İnformasiya texnologiyaları və məlumat bazası şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | 1 | | |
| | **13. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti** | | | |
| 330023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | | baş məsləhətçi |
| | **Cəmi:** | 1 | | |
| | **14. Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi** | | | |
| 470103 | Dini qurumlarla iş və dinşünaslıq ekspertizası şöbəsi | 1 | 6 | baş məsləhətçi-hüquqşünas |
| 470113 | Dini qurumlarla iş və dinşünaslıq ekspertizası şöbəsi, dini icmalarla iş üzrə | 1 | 6 | baş məsləhətçi |
| 470205 | Dini maarifləndirmə işinin təşkili və qeydiyyat sektoru, qeydiyyat üzrə | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | 3 | | |
| | **15. Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsi** | | | |
| 480013 | Aparat. Baş metodist | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | 1 | | |
| | **16. Naxçıvan Muxtar Respublikası Turizm Departamenti** | | | |
| 660103 | Turizmin inkişafı və təbliği sektoru | 1 | 6 | baş məsləhətçi |
| 660205 | Statistika və sertifikatlaşdırma sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 671001 | "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi | 1 | | direktor |
| 671005 | "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi | 1 | | kulinar |
| 672001 | Naxçıvan Turizm İnformasiya Mərkəzi | 1 | | direktor |
| | **Cəmi:** | 5 | | |
| | **17. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu** | | | |
| 490103 | Sosial sığorta və fərdi uçot şöbəsi | 1 | | baş mütəxəssis |
| 490304 | Pensiya təminatı şöbəsi | 1 | | böyük mütəxəssis |
| 490305 | Pensiya təminatı şöbəsi | 1 | | aparıcı mütəxəssis |
| 490405 | Maliyyə və mühasibat uçotu şöbəsi | 1 | | aparıcı mütəxəssis |
| 490624 | Daxili audit sektoru | 1 | | böyük mütəxəssis |
| 490804 | Ümumi işlər və kadrlar şöbəsi | 1 | | böyük mütəxəssis |
| | **Cəmi:** | 6 | | |
| | **18. "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti** | | | |
| 777023 | Mətbuat və ictimai əlaqələr üzrə | 1 | | böyük müvəkkil |
| | **Yekun:** | 59 | | |

## Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin fevral ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 1131041 | 116789 | 116803 | 100,0 |
| 2. | Naxçıvan şəhəri | 5184071 | 533810 | 533863 | 100,0 |
| 3. | Ordubad rayonu | 1995600 | 201855 | 201871 | 100,0 |
| 4. | Şərur rayonu | 3803900 | 381501 | 381527 | 100,0 |
| 5. | Babək rayonu | 4407600 | 443940 | 443961 | 100,0 |
| 6. | Kəngərli rayonu | 1596850 | 159958 | 159962 | 100,0 |
| 7. | Culfa rayonu | 2086330 | 209134 | 209136 | 100,0 |
| 8. | Sədərək rayonu | 492887 | 49386 | 49386 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 12824353 | 2244888 | 2117729 | 94,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **33522632** | **4341261** | **4214238** | **97,1** |

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Enerji resurslarının talanması hansı hüquqi məsuliyyətə səbəb olur?***

**Cavab:** Enerji resurslarının talanması həm inzibati, həm də cinayət məsuliyyətinə səbəb olur. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə əsasən təbii qazın, elektrik və ya istilik enerjisinin talanması nəticəsində az miqdarda ziyan vurulmasına görə fiziki şəxslər yüz manatdan yüz əlli manatadək məbləğdə, vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir. Təbii qazdan, elektrik və ya istilik enerjisindən istifadə qaydalarının pozulmasına görə isə fiziki şəxslər otuz manatdan qırx manatadək, vəzifəli şəxslər yetmiş manatdan doxsan manatadək, hüquqi şəxslər isə iki yüz əlli manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 189-1-ci maddəsinə əsasən elektrik şəbəkələrinə qanunsuz qoşulmaqla bu resursların talanması, bu əməllər xeyli miqdarda ziyan vurmaqla törədildikdə iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması ilə cəzalandırılır.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 230